Mayın 11-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Beynəlxalq Basketbol Tələbə Kuboku turnirinə start verilib.

Turnir Elm və Təhsil Nazirliyi və Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin tərəfdaşlığı ilə keçirilir.

Azərbaycan, Türkiyə, Gürcüstan, Özbəkistan, Türkmənistan və Belarus respublikaları, həmçinin Rusiya Federasiyasından komandaların mübarizə apardığı yarışa mayın 15-də yekun vurulacaq.

Qeyd edək ki, turnirin keçirilməsində məqsəd ümummilli lider Heydər Əliyevin irsinin aşılanması, tələbələr arasında basketbol idman növünün kütləviliyinin təmin edilməsi, beynəlxalq yarış təcrübələrinin artırılması və onlar arasında dostluq əlaqələrinin yaradılmasından ibarətdir.